

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 aprel 2024-cü il №28 (2839) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Aprelin 16-da Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib və son dövrlərdə Serbiyanın məruz qaldığı təzyiqlər haqqında məlumat verərək dost Azərbaycan xalqının dəstəyini xahiş edib.

Prezident İlham Əliyev Azərbaycan və Serbiyanın qarşılıqlı surətdə həmişə bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiklərini bildirərək bundan sonra da bu mövqenin davam etdiriləcəyini vurğulayıb. Bu xüsusda, iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd olunub.

Dövlətimizin başçısı Serbiya Prezidentini BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyasına dəvət edib.

Prezident Aleksandar Vuçiç dəvəti məmnuniyyətlə qəbul edib.

Söhbət zamanı Azərbaycan və Serbiya arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluq ifadə olunub və ölkələrimiz arasında əlaqələrin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti bildirilib.

## Hikmət Hacıyev: Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması barədə məlumatla əlaqədar AZƏRTAC-ın sualını cavablandırıb.

**- Mediada gedən məlumata və Rusiya Federasiyası tərəfindən verilmiş rəsmi açıqlamaya görə, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının çıxarılması prosesinə başlanıb. Bu məlumatı necə şərh edərdiniz?**

- 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. Artıq proses başlanıb, Azərbaycan və Rusiya müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər.

*Təlim*

# Topumuz da Vətən müharibəsi iştirakçısıdı



***Yaz fəslidi. Qışın öz hökmünü saxlamağa qüdrəti çatmayıb. Qışda da şaxta, sazaq sevgiyə, sevginin qüdrətinə hökm etməyə qadir deyildi. Bu sevgi Vətən sevgisi olduğu üçün, bu sevgi Azərbaycan əsgərinin Vətənə sevgisi olduğu üçün. Yolların uzaqlığını duman bürüyüb, yollarda duman görünür, yolların sağında-solunda duman sürünmür. Bu il bu həndəvərlərin yazı daha gözəldi, ilin bu vaxtlarında ayam könüləyatımlı olur, könülün ayamı olur. Təbiət hərbi hissənin həndəvərlərində yaz havası hələ də 2020-ci ilin payız ovqatını xatırladır - sənə elə gəlir ki, təbiət Azərbaycan əsgərinin ruhunun nəvazişindədi, bu nəvaziş 2020-ci ilin 8 noyabr, 2023-cü ilin 20 sentyabr qüdrətinə ehtiramdı; bizim də könlümüz bu ehtiramdan barınmaqdadı...***

Artilleriyaçıların növbəti təlimi olacaq...

Mayor Rauf Zeynalov İkinci Qarabağ müharibəsində artilleriyanın üstün fəaliyyətindən danışır. Bu, ayrı-ayrı mövqe döyüşlərinin timsalında xatırlama, xatırlatmadı. Xatırlatmaları həm təəssürat kimi, həm də müharibə tarixinin tarixi məqamları kimi dinləyirik.

- Düşmən işğal etdiyi ərazilərdə yaratdığı müdafiə sədlərini həm möhkəmləndirmişdi, həm də yeni müdafiə sistemləri ilə yeniləşdirmişdi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmri ilə əks-hücum əməliyyatını davam etdirdi, düşmənin müdafiə sədlərini darmadağın etdi. Döyüşən orduya artilleriya dəstəyi döyüşlərdə üstünlüyü təmin edirdi. Xatırlayıram ki, artilleriyaçılarımız Füzuli istiqamətində ciddi müqavimət göstərən düşmənin döyüşə nəzarət edən komanda məntəqələrini, döyüşə müdaxilə edən dayaq məntəqələrini dağıdırdı, döyüş texnikalarını, canlı qüvvəsini məhv edirdilər. Belə döyüş ordu hissələrimizin mövqe qələbələri qazanmasında gərəkli olurdu. Aşağı Seyidəhmədli kəndi yaxınlığında gedən döyüşdə artilleriyaçılarımızın atəş dəstəyi nəticəsində düşmənin müqaviməti qırıldı, əhəmiyyətli mövqe qələbəsi qazandıq...

Təlim başlayır. Əsgərlər komandaları ayrılıqda da, vəhdətdə də, kompleks formatda da rəvanlıqla, təlimata müvafiq yerinə yetirirlər. Top heyəti sərbəstliklə məsuliyyəti bir-birinin başlanğıcı bilir. "Paralel yelpiyin qurulması" mövzusunda təlim belə davam edir.

Öyrənirəm ki, bu top həm 2020-ci ildə - Vətən müharibəsində iştirak edib, həm də 2023-cü ildə - tarixi Zəfəri tamamlayan döyüşlərdə. Xatırlayıram ki, 2020-ci ilin dekabrın əvvəllərində Qubadlıda top heyəti ilə kəlmələşəndə bir əlim əsgərin çiyinindəydi, o biri əlim topun gövdəsində. Mənə elə gəlmişdi ki, ruhumu iki döyüşçünün mənə doğma nəfəsi isidir; ətrafında dayanıb kələmələşdiyim topu da döyüşlərin - Vətən müharibəsinin əsgəri bilmişdim. Bu gün də həmin ovqatdayam.

Batareyanın baş zabiti leytenant Samir Əliyev mövzuya aid nəzəri bilikləri xatırladır. Bu, top heyəti üçün biliklərin təkrarıdı. Məqsəd mövzunu əhatələyən təmrinlərin təlimata müvafiq müddətdə, təlimata uyğun yerinə yetirilməsini təkmilləşdirməkdi. Belə başlanğıc təlimin uğurla tamamlanacağının təminatçısıdı. Metod təlimin səmərəliliyini artırır. Əsgərlər nə etməli olduğunu da bilirlər, necə etməli olduğunu da. Top komandiri Tural Allahverdiyev bildirir ki, bugünkü təlimin mükəmməl mənimsənilməsi - təkmilləşdirilmə şərti düşmənin şərti obyektinə artilleriya atışlarının dəqiqliyini təmin edir.

(Ardı 4-cü səhifədə)

# ƏÜO-nun Hərbi Hava Qüvvələrində taktiki-xüsusi təlim keçirilib



Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Hərbi Hava Qüvvələrində taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimdə yuxarı komandanlığın idarəetmə məntəqəsindən verilən "HAZIRLIQ-1" komandası ilə Ordu aviasiyası və hava hücumundan müdafiə birləşmə və hissələri 1 nömrəli hazırlığa gətirilib. Eyni zamanda, ehtiyatda saxlanılan Hava Hücumundan Müdafiə (HHM) bölmələri döyüş tapşırığına əsasən, təyinat rayonlarına çıxaraq döyüş tapşırıqlarını icra ediblər.

2 nömrəli hazırlıqda olan aviasiya vasitələrinin heyətləri ilə uçuşdan əvvəl brifinq keçirilərək şəxsi heyət qarşısında döyüş tapşırıqları qoyulub. Uçuş heyətləri tərəfindən Mİ-17 nəqliyyat-döyüş helikopterləri ilə yer hədəflərinə aviazərbələr praktiki uçuşla təqlid edilib, çoxqat və çoxhədli hava hücumundan müdafiə sisteminin dəf edilməsi üçün müxtəlif manevrlər yerinə yetirilib.

Təlimə cəlb olunan HHM bölmələrinin döyüş növbətçiliyində olan Kəşfiyyat və Hədəfgöstərmə stansiyaları ilə hava məkanının fasiləsiz kəşfiyyatı aparılıb, məlumatlar təhlil olunub, qiymətləndirilib, emal edilərək komanda və idarəetmə məntəqələrinə, həmçinin qarşılıqlı əlaqədə olan bölmələrə ötürülüb.

Hava vəziyyətinin qiymətləndirilməsi Radiolokasiya bölmələri ilə yanaşı, Bayraktar TB2 və Vizual Müşahidə Postlarından alınmış məlumatlar əsasında aparılıb.

Komandir və döyüş heyətləri real döyüş şəraitində hədəflərin ardıcıl olaraq məhvetmə zonasına girmə ardıcıllığının, onlar arasında vaxt intervallarının hesablanması, müxtəlif hündürlük diapazonlarında intensiv aktiv və passiv maneə şəraitində fəaliyyət göstərən



şərti hava düşməninin məhv edilməsi, düşmənin kiçik ölçülü az sürətli PUA-lara qarşı HHM bölmələrinin fəaliyyəti üsulları üzrə məşq etdirilib.



Eyni zamanda, birlik, birləşmə, hissə və bölmələrin dislokasiya məntəqələri və döyüş mövqelərinin mini və mikro pilotsuz uçuş aparatlarının hücumlarından mühafizə olunması məqsədilə yerinə yetirilən aktiv tədbirlər çərçivəsində radiomaneə vasitələrindən istifadə olunub.

Taktiki-xüsusi təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib və bölmələr arasında birgə fəaliyyətin uzlaşmasına nail olunub.

## Hərbi pilotlar təlim-məşq uçuşlarını yüksək peşəkarlıqla icra ediblər



Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri təlim-məşq uçuşlarını icra ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılıb. Hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra praktiki uçuşlar yerinə yetirilib.

Ssenariyə uyğun olaraq, Su-25ML və Su-25 tipli təyyarələrdən müəyyən edilmiş marşrutlar üzrə gündüz vaxtı havaya qalxma, yerə enmə, həmçinin müxtəlif hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra edilib.

Hərbi pilotların döyüş hazırlığının təkmilləşdirilməsi məqsədilə keçirilən təlim-məşq uçuşları zamanı qarşıya qoyulan tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib.

## Müdafiə Nazirliyinin məlumatı







Ordumuzun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərən kvadrokopter bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunub və zərərsizləşdirilərək müsadirə edilib.

# “Xəzər səması-2024” birgə taktiki təlimi keçirilib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi cari ilin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrinin (HDQ) Hərbi Hava Qüvvələri (HHQ) ilə birgə "Xəzər səması-2024" hava hücumundan müdafiənin təşkili mövzusunda taktiki təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, taktiki təlimə ümumilikdə 300 nəfərədək şəxsi heyət, döyüş, idarəetmə və gözətçi gəmiləri, katerlər, döyüş vertolyotları və pilotsuz uçuş aparatları cəlb edilib.

Plana uyğun olaraq həyəcan siqnalı ilə baza məntəqəsindən ayrılan gəmilər Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda HHQ-nin aviasiya vasitələri ilə birgə dəniz enerji infrastrukturunun hava hücumundan müdafiəsinin təşkili, şərti düşmən hədəflərinin məhv edilməsi, eləcə də digər döyüş tapşırıqlarının icrası üzrə praktiki fəaliyyətləri yerinə yetiriblər.

Bundan başqa təlimdə gəmi taktiki qruplarının rayonda lövbərə dayanması və lövbərdən çıxması, hava hücumundan və sualtı diversiya əleyhinə müdafiənin təşkili üzrə fəaliyyətlər də müvəffəqiyyətlə icra olunub.





İki mərhələdə keçirilən taktiki təlimdə HDQ və HHQ-nin şəxsi heyəti qarşıya qoyulan bütün tapşırıqların icrasında yüksək peşəkarlıq nümayiş etdirib.

# Şəhid Milli Qəhrəmanın anım mərasimi keçirildi




*Vətən uğrunda şəhid olanların xatirəsi həmişə ehtiramla yad edilir. Azərbaycanın Milli Qəhrəmanı İlham Müzəffər oğlu Əliyev də həm tarixdə yaşayır, həm də yaddaşlarda.*

Qəhrəmanın adını daşıyan Gədəbəy şəhər 1 saylı tam orta məktəbdə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, Qazax-Tovuz Regional Təhsil İdarəsinin Gədəbəy rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə qəhrəmanın anım mərasimi keçirildi. Tədbirdə məktəbin müəllimləri, şagirdləri, ictimaiyyətin nümayəndələri iştirak etdilər. Öncə böyük tarixi şəxsiyyət Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, suverenliyi və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Mərkəzin əməkdaşı Şəhla Abdullayeva Milli Qəhrəmanın həyatı və döyüş yolu haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi. Bildirildi ki, İlham Müzəffər oğlu Əliyev 1961-ci il mayın 5-də Gədəbəy rayonunda anadan olub. Orta məktəbi 1978-ci ildə bitirib. Keçmiş sovet ordusu sıralarında xidmət etdikdən sonra Gədəbəy və İsmayıllı rayonlarında müxtəlif sahələrdə çalışıb. 1983-cü ildə o, polis orqanlarına işə qəbul edilib. İsmayıllı və Gədəbəy rayonunda bir müddət polis orqanlarında xidmət edib. 1985-ci ildə Rusiyanın Bryansk xüsusi orta milis məktəbində təhsil alıb. Gəncə və Gədəbəy şəhərlərində Daxili İşlər orqanlarında xidmətini davam etdirib. Nümunəvi xidmətinə görə "Əlaçı polis" döş nişanı ilə təltif olunub.

Ermənistan Azərbaycana qarşı elan etmədən müharibəyə başlayanda Qazax rayonunun sərhəd kəndləri də atəşə tutulurdu. Kəndlərin evləri yandırılır, soydaşlarımıza qarşı insanlığa sığmayan cinayətlər törədilirdi. Həmin vaxtlar kəndlərimizi və sərhədləri əhali və polis əməkdaşları müdafiə edirdilər. Polis əməkdaşları tez-tez Qazaxın sərhəd kəndlərinə ezam olunurdular. İlham və silahdaşları Qazaxın Aşağı Əskipara kəndinin müdafiəsindəydilər, ermənilərin sərhəd kəndlərimizə hücumlarını dəf edirdilər. Gərgin vəziyyət yaranmışdı. Kənd məktəbində mövqe tutaraq onlara cavab verməyə çalışırdılar. Cəsur polis zabiti silahdaşlarını xilas etsə də, özü düşmən gülləsinə tuş gəldi, ağır yaralandı. 19 avqust 1990-cı ildə polis leytenantı İlham Əliyev şəhid oldu. Doğulduğu Gədəbəy rayonunda dəfn edildi. Vətən qarşısında əvəzsiz xidmətləri unudulmadı. İlham Müzəffər oğlu Əliyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü.






Gədəbəy şəhərindəki məktəb onun adını daşıyır. Məktəbin önündə büstü qoyulub. Məktəb kollektivi qəhrəmanın xatirəsini hər gün yad edirlər.

Məktəbin direktoru Eldəniz Hüseynov Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən geniş miqyaslı quruculuq işlərindən bəhs edərək bildirdi ki, ölkəmizin müdafiə qüdrəti gündən-günə artır. Ölkəmizin iqtisadi-siyasi, hərbi sahədə qazandığı nailiyyətlər daha da genişləndirilir. Vətən torpaqlarımızın azadlığı və suverenliyi uğrunda şəhid olanların adları əbədiləşdirilir. Onların ailələrinə hərtərəfli maddi və mənəvi dəstək göstərilir. Xatirələri xalqımız və dövlətimiz tərəfindən daim böyük ehtiramla yad olunur. Onların həyatı bugünkü və gələcək nəsillərə əsil örnəkdir. Qəhrəman oğulların xidmətləri heç vaxt unudulmayacaq.

Sonra milli qəhrəmanın həyatından bəhs edən videoçarx nümayiş etdirildi. Məktəblilər "Əsgərə məktub" layihəsi çərçivəsində işğaldan azad edilmiş ərazilərdə Vətən keşiyində dayanan əsgərlərə qürur hissi ilə məktub ünvanladılar. Şagirdlərə Heydər Əliyev adına Hərbi İnstitut və hərbi kolleclər haqqında hazırlanmış bukletlər təqdim olundu. Sonra mərasim iştirakçıları məktəbin həyətində qəhrəmanın büstü önünə gül dəstələri qoydular.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Ordenli igidlərimiz*

# Gözlərdə parlayan Zəfər sevinci

Zabit Rauf Zeynalov Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. Hələ orta məktəbdə oxuduğu illərdə onun qəlbindən hərbçi olmaq, xalqına, Vətəninə xidmət etmək arzusu keçib. Arzusunu reallaşdırmaq üçün Rauf dərslərini oxumağa məsuliyyətlə yanaşıb, kitablarla dostluq edib. Həmişə yüksək qiymətlər alıb. Hazırlığı ilə həm müəllimlərinin, həm də sinif yoldaşlarının rəğbət və hörmətini qazanıb. Rauf təkcə dərslərdə deyil, məktəblilər arasında keçirilən "Cəsurlar", "Şahin" hərbi-idman və turizm yarışlarında da fəal iştirak edib. Həmişə təmsil etdiyi komandaya zəfər qazandırıb.

2004-cü il Rauf Zeynalov üçün çox yaddaqalan bir il olub. Çünki həmin il arzularına qovuşub, istəklərinə çatıb. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. İmtahanda gözlədiyindən də yüksək bal toplayıb. İllərin arzusuna çatdığına görə sevinci aşıb-daşırdı. Onun təhsildə qazandığı uğurlar valideynləri ilə bərabər müəllimlərini də sevindirirdi.

Artıq Raufun hərbi sahəyə gedən yolların qapıları üzünə geniş açılmışdı. Qüdrətli ordumuzun gələcək cəsur zabiti bu yollardan uğurla keçəcək, hərbi sirləri dərindən öyrənəcəkdi. Kursant Rauf Zeynalov dörd il ali hərbi məktəbdə oxudu. Təlim-məşqlərdə fəal iştirak etdi. Fəallığı, çalışqanlığı müsbət nəticələr verdi. Gələcəyin zabiti artilleriya qurğularının sirlərini dərindən mənimsədi. Ali hərbi təhsilini başa vurandan sonra - 2008-2009-cu illərdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində biliklərini daha da təkmilləşdirdi. Zabit ixtisasartırma kursunu uğurla başa vurdu. Kursu yüksək göstəricilərlə bitirəndən sonra gənc zabit Rauf Zeynalov taqım komandiri kimi "N" hərbi hissəsində xidmətə başladı.



Harada xidmət etməsindən asılı olmayaraq oxumaq, daim hərbi təhsilini artırmaq arzusu bir an olsun belə Raufun ürəyini tərk etmirdi. 2020-2021-ci illərdə bu arzu, bu istək onu Silahlı Qüvvələrin Hərbi Akademiyasına (indiki Milli Müdafiə Universitetinə) gətirdi. Zabit Rauf Zeynalov ali təhsil ocağında hərbi biliklərini daha da təkmilləşdirməyə başladı. Bir müddətdən sonra isə hərbi təhsilini artırmaq üçün Türkiyəyə göndərildi. Zabit R.Zeynalov qardaş ölkənin Milli Müdafiə Universitetində oxudu.

Təcrübəli zabit İkinci Qarabağ müharibəsində iştirak edib. Erməni qəsbkarlarının döyüş texnikalarının, atəş mövqelərinin artilleriya qurğuları ilə vurulmasında yüksək bacarıq göstərib. Döyüş yolu Füzulidən, Xocavənddən, Zəngilandan, Qubadlıdan, Cəbrayıldan keçib. Harada, hansı istiqamətdə olubsa, düşmən hədəflərinin vurulmasında yüksək peşəkarlıq nümayiş etdirib. Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə zabit Rauf Zeynalov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qarabağ" ordeninə, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medallarına layiq görülüb.

İştirakçısı olduğu döyüşlərdən söz açan zabit Rauf Zeynalov dedi:

- Uzun illərdən bəri torpaqlarımızın erməni qəsbkarlarının işğalı altında qalması bir zabit kimi məni çox narahat edirdi. Danışıqlar prosesi uzandıqca ermənilərin sülh yolu ilə torpaqlarımızı qaytarmağına inamımız azalırdı. Onlar torpaqlarımızı sülh yolu ilə qaytarmaq əvəzinə, yeni ərazilərimizi işğal edəcəklərini bəyan edirdilər. Deməli, müharibə qaçılmaz idi. Hər gün, hər an erməni təxribatı gözlənilən idi. 27 sentyabr 2020-ci il hələ heç günəş üfüqdən boylanmamış erməni işğalçıları yeni ərazilərimizi ələ keçirmək məqsədilə bütün istiqamətlərdə mövqelərimiz üzərinə hücuma keçdilər. Düşmən təxribatının qarşısını almaq üçün yurdumuzun müdafiəsinə atıldıq. Qısa müddət ərzində işğalçıların qarşısı alındı, əks-hücum əməliyyatı başladı. Uzun illər susan silahlar işə düşdü. Torpaqlarımızın azadlığı uğrunda İkinci Qarabağ müharibəsi alovlandı. Döyüşlərdə artilleriyaçılar da böyük igidlik və şücaət göstərdilər. Düşmənin zirehli texnikaları, atəş nöqtələri, silah-sursat bazaları dəqiq atəş zərbələri ilə vuruldu. Hərbçilərimiz 44 günlük Vətən müharibəsində üzərlərinə düşən tapşırıqları, müqəddəs borcu yüksək bacarıqla yerinə yetirdilər. Düşmən üzərində böyük Zəfər qazandılar. Uğurlu döyüşləri ilə Ermənistan ordusunu darmadağın edib, 30 ilə yaxın işğalda saxladıqları torpaqlarımızdan qovdular. Hərbçilərimiz qələbələri ilə xalqımızı sevindirdilər. Bu gün işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri aparılır. Uzun illərdən bəri qaçqınlıq həyatı yaşayan insanlar doğma ocaqlarına qayıdırlar. Bu qürurverici səhnələri gördükcə ürəyimiz dağa dönür, gözlərimizdə Zəfər sevinci parlayır.

İnanırıq ki, xalqımız uzun illər Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə minnətdarlıq hissi ilə bu sevinci yaşayacaq. Gözlərdə parlayan Zəfər sevinci insanların ürəyinə rahatlıq gətirəcək.

**Vahid MƏHƏRRƏMOV**
**Bakı şəhəri**

# Maarifləndirici tədbirlər davam etdirilir

*Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin həyata keçirdiyi birgə tədbirlər planına uyğun olaraq, komitənin Tovuz rayon şöbəsinin əməkdaşları bölgədə yerləşən hərbi hissələrdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və milli-mənəvi dəyərlərin təbliği ilə əlaqədar görüşlərini davam etdiriblər.*



Növbəti görüş "N" hərbi hissəsində keçirildi. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı, müstəqilliyi və suverenliyi uğrunda döyüşlərdə şəhid olanların xatirəsi yad olundu. Sonra Şəmkir məscidinin imamı Hacı Elmar Rzayev çıxış etdi. O, hərbi xidmətin Vətən, xalq qarşısında hər bir gəncin müqəddəs borcu olduğunu bildirdi. Qədim dövrdən insanlar öz vətənlərini, torpaqlarını yadellilərdən, düşmənlərdən qoruyaraq gələcək nəsillərə çatdırıblar. İslam dinində də bu meyarlardan ətraflı bəhs olunur. Vətən, torpaq hər bir kəs üçün müqəddəs sayılır. Buna görə də Vətənimizin bu günü və gələcəyi naminə öhdəsinə düşən vəzifələri şərəflə yerinə yetirmək hər bir vətəndaşın borcudur. Bu gün xidmətdə olanlar Vətən torpağını sevərək, Hərbi Anda sadiq qalaraq müqəddəs borclarını şərəflə yerinə yetirirlər. Vətən müharibəsi göstərdi ki, Azərbaycanda Vətənə, torpağa xidmət həmişə uca tutulur. Buna görə də xalqımızın, dövlətimizin, ordumuzun və Müzəffər Ali Baş Komandanımızın sərkərdəliyi ilə Vətən torpaqları Ermənistan silahlı birləşmələrindən tamamilə təmizləndi. Ölkəmizin ərazi bütövlüyü tam təmin edildi. Vətən yolunda şəhid olanların xatirəsi də həmişə uca tutulur. Həyatımız boyu şəhidlərimizə hörmət və ehtiramımızı bildirmək hamımızın borcudur. İnanırıq ki, bu gün xidmətdə olanlar adları tariximizə qızıl hərflərlə yazılan qəhrəmanların layiqli davamçıları kimi xidmət edəcək, Vətənimizin keşiyində sayıq dayananacaqlar.

Aparıcı mütəxəssis Vüqar Əliyev çıxış edərək hərbi həyatın özünəməxsus xüsusiyyətləri, nizamnamə qaydaları, əsgər və zabitlər arasında qarşılıqlı münasibətlərin yüksək səviyyədə qurulması üçün mövcud hərbi tələblərə ciddi əməl edilməsi, Vətənə, xalqa nümunəvi xidmətin əvəzsiz olması haqqında ətraflı danışdı. Vətənə, xalqa, torpağa bağlı olan hərbi qulluqçuların göstərdiyi böyük rəşadətlərin əvəzsiz olduğunu diqqətə çatdırdı. Azərbaycan Ordusunun qarşısında duran vəzifələri böyük vətənpərvərliklə yerinə yetirəcəyinə əminliyini ifadə etdi.

Sonra hərbi qulluqçuları maraqlandıran suallar cavablandırıldı. Zabit Elmar Zeynalabdinov komandanlıq adından onlara minnətdarlığını bildirdi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**



# Yaşar Gülər: Tam müstəqil müdafiə sənayesi - günün tələbidir

Effektivliyini Qarabağda, Liviya və Ukraynada aydın şəkildə sübut edən Türkiyə müdafiə sənayesi məhsullarına dünya bazarında tələbat günbəgün artır. Biz bu müsbət trendi böyük məmnunluq hissi ilə müşahidə edirik.

AZƏRTAC xəbər verir ki, bu ifadələri Türkiyənin milli müdafiə naziri Yaşar Gülər Ankarada keçirilən "İnsanlı Hava Platformaları Layihələrinin İmza Mərasimi"ndə çıxışı zamanı səsləndirib. Onun sözlərinə görə, Türkiyə, bir əsr əvvəl işğalçı ordulara qarşı ölüm-dirim mübarizəsi aparan ölkədən, iqtisadiyyatı daim böyüyən, güclü orduya sahib və dayanmadan inkişaf edən müdafiə sənayesinə malik, regionda və dünyada söz sahibi olan qüvvəyə çevrilib.

Yaşar Gülər, dövlətin nüfuzunun artmasında Prezident Rəcəb Tayyib Ərdoğanın siyasətinin və əməyinin danılmaz olduğunu vurğulayıb. Bölgədə yaşanan böhran və münaqişələrə diqqət çəkən nazir "İdxala bağlı olmayan, tam müstəqil müdafiə sənayesi və güclü ordu - günün tələbidir, şərtidir", - deyə qeyd edib.

# Rusiyalı deputat: Qarabağın Azərbaycana məxsus olması ilə bağlı artıq heç kim mübahisə etmir

Rusiya sülhməramlı kontingentinin (RSK) Qarabağdakı missiyası tam yerinə yetirilmiş hesab edilə bilər, çünki Qarabağın Azərbaycana məxsus olması ilə bağlı artıq heç kim mübahisə etmir.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Dövlət Dumasının Müdafiə komitəsi sədrinin birinci müavini Aleksey Juravlyov bildirib.

O qeyd edib ki, RSK-nın missiyası tam yerinə yetirilmiş hesab edilə bilər, yəni, Rusiya hərbçilərinin artıq evə qayıtmaq vaxtı çatıb.

Deputat qeyd edib ki, indi sülhməramlılara ehtiyac yoxdur, çünki Qarabağda heç bir münaqişə tərəfi qalmayıb və Qarabağın Azərbaycana məxsus olması ilə bağlı artıq heç kim mübahisə etmir.

Eyni zamanda, politoloq Aleksey Naumov bildirib ki, 2023-cü ilin sentyabrında Qarabağdakı antiterror əməliyyatından sonra Moskva sülhməramlılarla bağlı bütün məsələləri Bakı ilə həll edib. O deyib ki, Qarabağın Azərbaycana qayıtmasından sonra Moskva sülhməramlılar haqqında yalnız Bakı ilə dialoq aparacağını vurğulayıb və indi bu dialoqun nəticəsi görünür. "Ermənistan Fransa və ABŞ ilə danışıqlara girəndə, Rusiya Azərbaycanla danışıqlar aparıb. Gündəmdə yeni, Qərbdən asılılığı olmayan logistika zəncirləri (xatırladım ki, bu nəqliyyat zənciri Qərblə münasibətlər yaxşılaşacağı təqdirdə də gərəkli olacaq), birgə qaz layihələri var. Daha bir cəhd isə Cənubi Qafqaz regionunda Qərb təsirinin qarşısının alınmasından ibarətdir", - deyə A.Naumov qeyd edib.

# Topumuz da Vətən müharibəsi iştirakçısıdı



**(Əvvəli 1-ci səhifədə)**

Vətən müharibəsində təlim keçdiyimiz bu top da döyüşlərə cəlb olunmuşdu. Bizim batareya həm də döyüşən ordu hissələrimizə bu topla atəş dəstəyi verirdi. Bu gün təlim keçdiyimiz mövzunu vaxtında yaxşı mənimsədiyimizə görə əmrləri dəqiq yerinə yetirirdik. Digər qoşun növlərinin döyüşçüləri də, bizim döyüşçülərimiz də mərdliklə vuruşduğuna görə döyüşlər 44 gündə qələbə ilə başa çatdı, - leytenant Samir Əliyev belə deyir.

Müharibədə, eləcə də əməliyyat tədbirlərində döyüşlərə cəlb edilmiş topları "döyüşçü" adlandırmağımız mayor Rauf Zeynalovun da, topun şəxsi heyətinin də xoşuna gəlir.

- Əsgərlər hərbi xidmətdə artilleriyaçı kimi hazırlanır, qısa müddətdə artilleriya üzrə yüksək döyüş hazırlığına malik olur. Tərxis olunanları gənc əsgərlər əvəzləyirlər. Batareyanın zabitləri gənc artilleriyaçılara topun özü haqqında da məlumat verirlər. Bu məlumatlar gənc əsgərlərin döyüş yolu keçmiş topun timsalında artilleriyaya marağını artırır və sevginin başlanğıcı olur. Ona görə biz gənc əsgərlərlə ilk dərsləri bu məzmunda təşkil edirik. Öyrədilənlər bu maraq, bu sevgi əsasında dərinləşdirilir, zənginləşdirilir. Əsgərlərə məlumat vermişik ki, bu top Vətən müharibəsində düşmənin komanda və dayaq məntəqələrinə, mövqelərinə, başqa mövqelərə göndərilən döyüş maşınlarına, ərzaq, sursat daşıyan karvanlarına və s. 1000-ə qədər mərmi atıb. Əsgərlər bu rəqəmə heyrətlənmir, bu mərmiləri atmış tanımadıqları döyüşçüləri böyük ehtiramlarla yada salırlar: "Sizin qələbə yolunuzu nümunəvi xidmətimizlə davam etdiririk".

Top komandiri Tural Allahverdiyev duyğuları da, düşüncələri də tərpədən bir məqamdan söz açır. 2020-ci ilin noyabrına kimi qəhərli xatırlamaların mahiyyəti dəyişib. İndi xatırlamalarda ovunmaz həsrət var, azalmayan-sozalmayan intizar var:

- Kəlbəcərdənəm. Ürəyim məni görmədiyim Kəlbəcərə çəkir. 17 aydı bu topu da Kəlbəcərimizi işğaldan azad edənlərin sırasında bilirəm. Hər təlimdən əvvəl onun gövdəsinə toxunanda elə bilirəm ki, Kəlbəcər dağlarının daş əllərinə toxunuram. Qürurlanıram ki, əsgərəm, qürurlanıram ki, döyüşmüş, qalib gəlmiş topun komandiriyəm. Tərxis edildikdən sonra bu haqda çağırışçı qardaşım Tunara da danışacam. Kaş o da artilleriyaçı olaydı...



- Əsgər Ramin Dadaşov da, Nicat Yüzbəyov da, Famil Həsənli də, ... mövzunu yüksək səviyyədə mənimsəyiblər. Ümumiyyətlə, şəxsi heyət yüksək döyüş hazırlığına malikdir. Hər təlim bu hazırlığı təkmilləşdirir, - leytenant Nihad Hüseynov təlimlərin döyüş hazırlığı prosesində əhəmiyyətli olduğunu bildirir...

Təlim başa çatır. Vətən müharibəsində düşmənin strateji mövqelərinə, komanda və dayaq məntəqələrinə neçə yüzlərlə mərmi atmış bu topun bugünkü heyəti şərti düşmənin şərti mövqeyini dəqiq nişan almanı bir daha təcrübi təkrarlayıblar. Bu, təkmilləşmə deməkdi, döyüş hazırlığının yüksəldilməsi deməkdi. Azərbaycan əsgərinin yüksək döyüş hazırlığı Azərbaycanın ərazi bütövlüyünün zəmanətidi. Əsgərlərdən bu zəmanətin dönməzliyinə sədaqətlə ayrılırıq...

Hava elə gözəldir ki! Bu gözəlliyi əsgərlərin döyüş hazırlığı daha da gözəlləşdirir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# “Cənnətdə əbədi ad günün mübarək!”



İkinci Fəxri xiyabanda şəhid, kapitan Ülvü Möhsün oğlu Hüseynovun anadan olmasının 36-cı ildönümü qeyd olundu. Şəhidin doğum günündə ailə üzvləri, Müdafiə Nazirliyinin, ictimaiyyətin nümayəndələri eləcə də başqa qonaqlar əvvəlcə məzarı üstünə tər çiçəklər qoydular.

Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani şəhid kapitan Ülvü Hüseynovun məzarı önündə çıxış edərək mərhumun həyatından, döyüş yolundan söz açaraq dedi ki, Ülvü Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Sabir kəndində doğulub. Heydər Əliyev adına Hərbi Liseydə oxuyub, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi institut) "motoatıcı" ixtisası üzrə təhsil alıb. Zabit kimi hərbi xidmətini cəbhə bölgəsində keçirib.

İkinci Fəxri xiyabana xitabən - "Müqəddəs ünvandı bu yer, bu məkan. İllər ötür, nəsillər dəyişilir, hər şey unudulur, yaddan çıxır, amma unudulmayan, yaddan çıxmayan, torpaq uğrunda şəhid olan qardaşlarımızdı. Ülvü və onun kimi qeyrətli, cəsur oğulların sayəsində bu gün torpaqlarımız düşmən tapdağından azaddır. Ona görə də bu gün onların ruhu şaddır".

Polkovnik Abdulla Qurbani daha sonra qeyd etdi ki, o, 1992-ci ildə Ordubad rayonunun Sabir kəndində Birinci Qarabağ müharibəsi şəhidinin dəfn mərasimində iştirak edib. O zaman Vətənimizin hər yerində olduğu kimi, Ordubadda da gənclər könüllü cəbhəyə gedirdilər. Onların da bir arzusu, bir amalı vardı: Vətən torpağını qorumaq. Ülvü də onların vətənpərvərliyindən ruhlanaraq böyüyəndə hərbçi peşəsini seçmişdi. Kapitan rütbəsinə qədər yüksəlmişdi. İkinci Qarabağ müharibəsində Füzulidən Şuşaya qədər şərəfli döyüş yolu keçdi. Müharibənin bitməsinə bir gün qalmış Şuşada şəhadətə ucaldı. Ülvü hər birimizin qəlbində əbədiləşdi.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Ülvü Hüseynov "Qarabağ" ordeni ilə təltif olundu.

Polkovnik Abdulla Qurbani şəhid Ülvü Hüseynovun oğlu Nihada müəllifi olduğu "Vətən müharibəsi şəhidləri" kitabını hədiyyə etdi.



Şəxsi Heyət Baş İdarəsi Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə İş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova şəhidin anasına, həyat yoldaşına səbir dilədi. Xalqımızın şəhid qəhrəman oğullarla həmişə fəxr etdiyini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə həmişə diqqət və qayğı göstərdiyini bildirdi.

Şəhidin qohumları, "Uğurlu yol" qəzetinin baş redaktoru və digər çıxış edənlər Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıq, şücaət göstərərək şəhid olanlardan, həmçinin Ülvünün keçdiyi döyüş yolundan bəhs etdilər. Şəhidlərin və döyüşlərdə yaralananların göstərdiyi qəhrəmanlıqlara görə bu gün torpağımızın erməni tapdağından azad edildiyini bildirdilər.




**Bəxtiyar ƏLİYEV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Şəhid Milli Qəhrəman Şövqiyar Abdullayevin doğum günü qeyd olundu



Azərbaycan Hərb Tarixi Muzeyində Birinci Qarabağ müharibəsinin şəhid tank komandiri, Azərbaycanın Milli Qəhrəmanı Şövqiyar Abdullayevin anadan olmasının 55 illiyinə həsr olunmuş anım tədbiri keçirildi.

Anım tədbirində Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, qeyri-hökumət təşkilatlarının nümayəndələri, şəhid Milli Qəhrəmanın ailə üzvləri, döyüş yoldaşları, veteran tankçılar, tələbələr və başqa qonaqlar iştirak etdilər.

Əvvəlcə anım tədbirində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə "Azərbaycanın Milli Qəhrəmanı Şövqiyar Cəmil oğlu Abdullayevin həyatı və döyüş yolu" adlı məruzə ilə çıxış etdi. Bildirdi ki, XX əsrin sonlarında yenidən öz tarixi müstəqilliyini qazanan Azərbaycan həm də onun itirilməsi təhlükəsi ilə qarşılaşdı. "Xarici havadarlarının və daşnak tör-töküntülərinin gücünə arxalanan ermənilərin mənfurluğu və nankorluğu nəticəsində ölkəmiz bir-birinin ardınca ağır sınaqlar qarşısında qaldı. Azərbaycanın tarixi torpaqlarına Ermənistanın açıq ərazi iddiaları, etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Vətənimizə qarşı hərbi təcavüzlə nəticələndi. Həmin ağır sınaq illərində minlərlə oğul və qızlarımız torpaq uğrunda döyüşlərə atıldı. Qədim Basarkeçərdən Azərbaycana pənah gətirmiş 40 mindən çox qaçqından biri də Nərimanlı kəndindən olan ağsaqqal müəllim Cəmil Abdullayevin ailəsi idi. Bu ailənin oğul övladlarından biri olan Şövqiyar da, təbii ki, baş verən ağrı-acıya biganə qala bilmədi, ali təhsilini yarımçıq qoyub, Vətənin müdafiəsinə qalxdı. Xocalı faciəsi isə onun xain düşmənə olan nifrətini, qəzəbini birə-beş artırmışdı. İgid tank komandiri ən qaynar döyüşlərin getdiyi Ağdam torpağında döyüşdü. Onun heyəti Ağdam rayonunun Abdal-Gülablı, Papravənd, Pircamal, Aranzəmin kəndləri, Ağdərənin Drambon kəndi, Sərsəng su hövzəsi uğrunda gedən ağır döyüşlərdə əsl qəhrəmanlıq, fədakarlıq nümunələri göstərdi. 1992-ci il avqustun 23-də Şövqiyarın tank heyəti Abdal-Gülablı kəndi ətrafındakı mövqelərdən Ağdərəyə - Drambon kəndinin müdafiəsinə göndərildi. Sərsəng su hövzəsi yaxınlığındakı Drambon kəndi erməni yaraqlılarının əlində idi. Kəndin ətrafında mövqe tutmuş erməni yaraqlıları əsgərlərimizi güclü atəşə tutaraq, onların kəndə daxil olmasına imkan vermirdilər. 1992-ci il avqustun 27-də baş vermiş ağır döyüşdə o, öz yoldaşlarını əsir düşməkdən xilas etməyi bacarsa da, özü qəhrəmancasına şəhid oldu. Qorxmaz tank komandiri Şövqiyar Abdullayevin cənazəsi Bakıda Şəhidlər xiyabanında böyük ehtiramla torpağa tapşırıldı".

Muzey rəisi çıxışının sonunda onu da qeyd etdi ki, Vətən üçün canından keçən Şövqiyar kimi mərd, qoxmaz oğulların xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayır və yaşayacaq. "Vətəninə, torpağına bağlı Şövqiyarın örnək ömür və döyüş yolu haqqında hələ çox danışılacaq, mərdliyi, qorxmazlığı dastanlara dönüb dillərdə dolaşacaq. 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu həm də Şövqiyar Abdullayev kimi vətənpərvər şəhidlərimizin müqəddəs arzularını gerçəkləşdirdi, işğal edilmiş bütün torpaqlarımızı düşməndən azad edərək, işğalçı erməni qüvvələrini tarixi ərazilərimizdən qovdu".

Anım tədbiri Azərbaycanın Milli Qəhrəmanı Şövqiyar Abdullayevə həsr olunmuş sənədli filmin nümayişi ilə davam etdi.



Veteran Tankçılar İctimai Birliyinin sədri Hacı Əzimov 44 günlük Vətən müharibəsində bütün şəhidlərimizin qisasının mənfur düşməndən alındığını dedi. Tank komandiri kimi ağır döyüşlərdə zirehli texnikanı məharətlə idarə etməsindən, düşmənə sarsıdıcı zərbələr endirməsindən, yüksək hazırlıqlı döyüşçü olaraq zabit və əsgərlər arasında dərin hörmət qazanmasından danışdı. "Şövqiyar Abdullayev yaşasaydı, bu gün 55 yaşı olardı, ancaq şəhidlik məqamına ucalanda qəhrəman 23 yaşındaydı. Allah Şövqiyar Abdullayevə və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizə rəhmət eləsin".

Qarabağ Qazilər İctimai Birliyinin sədr müavini Ədalət Asifli-Məhərrəmov, Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi İctimai Birliyinin sədri Mehriban Abdullayeva, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Güləmail Murad şəhidlərimizin canı bahasına qazanılan Böyük Zəfərdən, Ali Baş Komandanın qətiyyətli addımlarından, yüksək diplomatik bacarığından, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərindən, ata-baba yurdlarına geri dönən soydaşlarımızın sevincindən danışdılar. Eyni zamanda, gənclərə örnək olan şəhidlərimizin şərəfli həyat və döyüş yoluna həsr edilən belə tədbirlərin keçirilməsinin vacibliyini vurğuladılar.

Daha sonra Milli Qəhrəmanın qardaşı Şəmsi Abdullayev çıxış edərək, ailələrinə göstərilən yüksək diqqət və qayğıya, şəhid qardaşının adının daim uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını ifadə etdi.

Sonda tədbir iştirakçıları Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında şəhidlərimizin xatirəsinə həsr olunmuş mahnıları, vətənpərvərliyi tərənnüm edən musiqiləri maraqla dinlədilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir

**Suallar:**

**1. Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.**

**2. Müasir Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin əsəridir.**

### Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir

Müəyyən mərhələdə önə çıxan fenomen şəxsiyyətlər mənsub olduqları xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali ideallarının gerçəkləşməsində müstəsna rol oynayır, bununla da əbədiyaşarlıq qazanırlar. Məhz onların qurub yaratdıqları, miras qoyduqları irs xalqlarının gələcəyinə işıq salıb, sonrakı tarixini, dünyadakı yerini müəyyənləşdirib. Belə dühalardan biri də şərəfli və mənalı ömür yolunu Azərbaycanın nicatına, milli dövlətçiliyimizin dirçəlməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna qovuşmasına həsr edən Heydər Əliyevdir. Azərbaycan xalqının Ümummilli Liderinə çevrilmiş bu dahi insanın adı ölkəmizin simvoluna, əməlləri isə şəxsi hünər rəmzinə çevrilmiş, həyat və fəaliyyəti doğma vətəninə və torpağına məhəbbət, sədaqət meyarı olmuşdur.

1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində dünyaya göz açan Ulu Öndər ilk təhsilini Naxçıvanda alıb. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub. İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib. 1941-1945-ci illərdə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işlədikdən sonra 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi təyin edilib. Hər zaman təhsilə böyük önəm verən Ulu Öndər Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsini bitirib. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib və həmin ildə ona general-mayor hərbi rütbəsi verilib. 1969-cu ildə - Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Ulu Öndər Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir. Tarixi inkişafın gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycan Respublikasını Ulu Öndər hələ o zaman qurmağa başlamışdı.

Heydər Əliyevin Ümummilli Liderə çevrilməsini təmin edən başlıca amillərdən biri onun istənilən siyasi şəraitdə xalqın, dövlətin problemlərinə biganə qalmamasıdır. Bu yerdə Ulu Öndərin sovetlər dövründə Azərbaycana rəhbərliyini xatırlamaya bilmərik. Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərliyinin ilk dövrlərindən atdığı addımlarla, keçirdiyi islahatlarla xalqını, dövlətini sevən rəhbər olduğunu sübuta yetirmişdir. Ulu Öndər respublikanın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə, onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərmiş, fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti, ən əsası, milli ideallara bağlılığı ilə Azərbaycanı cəmi bir neçə ilə dinamik inkişaf yoluna çıxarmağa müvəffəq olmuşdur. SSRİ dövlət təhlükəsizlik sistemində sıravi işçidən rəhbər vəzifəyə kimi yüksəlmiş ilk azərbaycanlı olan Ulu Öndər sovet rejiminin sərt qanunlarına baxmayaraq, Azərbaycana rəhbərlik etməyə başladığı 1969-cu ildən respublikamızda böyük iqtisadi, elmi yüksəlişlə yanaşı, ədəbi-mədəni inkişafa və müstəqil düşüncəyə yol açmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti ondan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində, XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli-azadlıq hərəkatının yeni mərhələyə - yüksəliş mərhələsinə daxil olması demək idi. Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə dövlət rəhbərliyinə qayıdışından sonra müstəqil Azərbaycanın əsas hədəflərindən biri kimi milli və bəşəri dəyərlərə söykənən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində real addımlar atıldı, ölkənin gələcək demokratik inkişaf yolu müəyyənləşdi, insan hüquq və azadlıqlarının bərqərar olması üçün münbit ictimai-siyasi şərait yaradıldı, sahəvi qanunlar işlənib hazırlandı, qanunçuluq möhkəmləndirildi, hüquqi islahatlar həyata keçirildi. Ulu Öndərin formalaşdırdığı azərbaycançılıq fəlsəfəsi milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi üçün zəmin yaratdı. Son yüz ildə çox ciddi məsələ kimi özünü qabarıq göstərən milli dövlətçilik problemi Ulu Öndər Heydər Əliyevin gərgin və ardıcıl fəaliyyəti nəticəsində elmdən, nəzəriyyədən əməli siyasət və praktiki həyat müstəvisinə keçirildi.

Azərbaycan Respublikasında müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycan Respublikasının dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləridir.

Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun nəinki Cənubi Qafqazda, dünyada aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

### Müasir Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin əsəridir

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır. 1991-ci ilin 18 oktyabrında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də əsas təşəbbüskarlarından biri kimi imza atdığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı" ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda, ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, xaos və anarxiya mühitinin dərinləşməsi göstərmişdir ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyət sükanı arxasına keçmiş, ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etmiş, eyni zamanda, insan hüquq və azadlıqlarının təminatına xidmət edən hüquqi islahatların müəllifi olmuşdur. Mürəkkəb şəraitdə xalqın səsinə səs verərək hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirilmiş, vətəndaş sülhü və həmrəyliyinin təminatı istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır.

Ulu Öndər dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Azərbaycan Respublikasının zorla cəlb olunduğu Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycan Respublikasını tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə, uğurlu neft strategiyasının təməlini qoydu. Ölkəmizin günbəgün beynəlxalq nüfuzu artmağa, iqtisadiyyatımızın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırılmağa başlanıldı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Ulu Öndər Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Ulu Öndər Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi Vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Ulu Öndər Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikasının müasir tarixini əhatə edən, zaman baxımından bir qərinəlik, mahiyyətcə isə əhəmiyyəti əsrlərlə ölçülən mərhələsində həm dünya şöhrətli uzaqgörən siyasi və dövlət xadimi, həm mahir strateq və yenilməz sərkərdə, həm iqtisadi-mədəni intibahın memarı və milli-mənəvi mədəniyyətin böyük hamisi, həm yorulmaz vətənpərvər və polad əqidəli vətəndaş, həm də görkəmli mütəfəkkir və milli ziyalılığın öndəri kimi titanik fəaliyyət göstərmişdir.

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermişdir. Tarixə Azərbaycan xalqının Ümummilli Lideri kimi daxil olmuş bu əvəzolunmaz insan liderlərə məxsus ən ali keyfiyyətlərə malik idi. Tanrı ona hər bir üstünlüyü bəxş etmişdi: yaraşıqlı boy-buxun, təbəssüm və sərtliyi sintez edən sima, gələcəyi dəqiq müəyyənləşdirən, tarixin nizamını təmin edən təfəkkür, parlaq natiqlik məharəti, qüdrətli siyasi iradə, güclü dövlətçilik duyğusu, çevik idarəetmə məharəti, insanların qəlbinə yol tapmaq, xalqın qüdrətinə arxalanmaq bacarığı! Bir sözlə, Ulu Öndər Heydər Əliyev qalibiyyət əzmiylə yaşayan və dövləti cəsarətlə idarə edən möhtəşəm bir şəxsiyyət idi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev atasından qalan nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyində tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq təkmilləşdirib inkişaf etdirir. Azərbaycan Respublikasının dünyadakı nüfuzlu, vüsətli siyasi və iqtisadi yüksəlişi sübut edir ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev qalibiyyət əzmini dövlət idarəçiliyinin sarsılmaz baş xətti kimi inadkar bir inamla qoruyub saxlayır. Xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ərazi bütövlüyümüzü bərpa etdi və eyni zamanda, ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, qanunun aliliyinin təmin edilməsi, dilindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində əsas prinsipləri təsbit edən Azərbaycan, eyni zamanda, iqtisadiyyatın inkişafında da misli görünməmiş uğurlara imza atmaqdadır. Dövlət başçısı cənab İlham Əliyevin fəaliyyəti dövründə Azərbaycanda iqtisadi və sosial sahələrdə köklü islahatların davam etdirilməsi, dövlət proqramlarının icrası, dinamik sosial-iqtisadi inkişafının qarşıya qoyulmuş məqsədlərə çatmasının göstəricisidir.

Əsası Ulu Öndər, Əbədiyaşar Lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanda siyasi və iqtisadi islahatların keçirilməsi hesabına qazanılan böyük uğurlar parlaq və fərəhlidir. Biz bu gün fəxr edə bilərik ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qurduğu müstəqil, demokratik və azad bir ölkənin vətəndaşlarıyıq!

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Xüsusi təyinatlı hərbi təhsil müəssisələrinə qəbulla bağlı maarifləndirici görüşlər keçirilib






*Xüsusi təyinatlı hərbi təhsil müəssisələrinə qəbul qaydaları və həmin təhsil müəssisələrində yaradılan təhsil imkanları barədə şagirdlərin məlumatlandırılması məqsədilə Balakən şəhəri Nizami adına 1 və Nəsimi adına 2 nömrəli tam orta məktəblərdə maarifləndirici görüşlər keçirilib.*

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Şəki-Zaqatala Regional Təhsil İdarəsindən məlumat verilib.

Bildirilib ki, Milli Müdafiə Universitetinin hərbi qulluqçusu polkovnik-leytenant Xəyal Cumayəddinovun, rayonun ümumi təhsil müəssisələrinin hərbi rəhbərlərinin və yuxarı sinif şagirdlərinin iştirak etdikləri tədbirlərdə hərbi təhsil müəssisələri haqqında ətraflı məlumat verilib, təqdimat nümayiş olunub.

Sonda iştirakçıların sualları cavablandırılıb.

Regional Təhsil İdarəsinin əməkdaşı Mahal Məmmədovun verdiyi məlumata görə, Milli Müdafiə Universiteti 1-30 aprel tarixlərində tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinə (Heydər Əliyev adına Hərbi İnstitut, Bakı, Gəncə, Naxçıvan Hərbi kollecləri, Heydər Əliyev və Cəmşid Naxçıvanski adına Hərbi liseylər) və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsinə qəbul elan edir. Vətəndaş məmnunluğunun və əlçatanlığın təmin edilməsi məqsədilə respublikanın 13 şəhərində ümumi olaraq 17 sənəd qəbulu mərkəzi yaradılıb. Sözügedən təhsil müəssisələrinə qəbul olmaq arzusunda olan vətəndaşlar istənilən sənəd qəbulu mərkəzinə yaxınlaşaraq sənədlərini təqdim edə bilərlər.

### Məişət

## Əsgərlərimizin şəraiti bütün müasir standartlara cavab verir





*Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə inkişafın yeni mərhələsinə qədəm qoyan rəşadətli Azərbaycan Ordusu regionun ən güclüsünə və xalqın güvənc yerinə çevrilib. Dövlət başçısının ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi siyasətin uğurla həyata keçirilməsi ordumuzun gücünü gündən-günə artırır. Vətən müharibəsi və ordumuzun həyata keçirdiyi digər döyüş əməliyyatları bunun bariz nümunəsidir.*

Əlbəttə, bu qələbəni bizlərə yaşadan məğrur əsgərlərimizdir. Məhz onların şücaəti və qəhrəmanlığı sayəsində torpaqlarımız azad edildi, şəhidlərimizin qisası alındı. Bununla bərabər dövlət rəhbərliyinin diqqət və qayğısı nəticəsində hərbi hissələrdə müasir standartlara cavab verən idman şəhərciyi, yataqxanalar, tibb məntəqələri, yeməkxanalar, ideoloji və məişət otaqları əsgərlərin istifadəsinə verilib.

"N" hərbi hissəsinin yeməkxanasında da bunun canlı şahidi olduq. Yeməkxana növbətçisi gizir Amid Hüseynov hazırlanan yeməklər barəsində qısaca məlumat verdi. Standartlara cavab verən əsgər yeməkxanası ilə ilk tanışlıqdan əmin olduq ki, burada qulluq edən aşpazlarımızın sayəsində səliqə-sahman, əsgərlərin gündəlik qidalanması lazımi səviyyədədir. Xüsusi forma geyinmiş xanım aşpazlardan biri ilə həmsöhbət olduq.

"Bu gün Azərbaycan Ordusunun sıralarında xidmət edən, qəlbi Vətən sevgisi ilə döyünən, düşmənə qarşı qisas və intiqam hissi ilə alışıb-yanan oğullarımıza qayğı göstərmək borcumuzdur", - deyə aşpaz Şücaət Dadaşova söhbətə başladı. - Əsgərlərimizə hazırladığımız bütün yemək çeşidlərinin hamısı milli mətbəximizdəndir. Səhər, nahar və şam yeməkləri ayrı-ayrı menyulara uyğun olaraq hazırlanır. Qida rasionuna süd, bal, yağ, cem, ət, kartof, düyü, qarabaşaq, balıq, şirniyyat növləri, təbii meyvə şirələri və s. daxildir. Biz öz növbəmizdə hazırladığımız yeməklərə sevgi qatırıq ki, onlar əsgər balalarımızın analarının bişirdiyi yeməklərdən fərqlənməsin.

Aşpaz Şəhla Dəmirova da həmkarının fikirlərini təsdiqlədi. "Burada işlədiyim müddətdə çalışmışam ki, hər zaman bişirdiyimiz yeməklər igid əsgərlərimizin ürəyincə olsun və onlar doğma evlərində bişirilən yeməklərin dadını hiss edə bilsinlər. İnanıram ki, ona da nail ola bilirik. Ancaq onlardan ana kimi bir istəyimiz, bir gözləntimiz var. Vətən torpağının keşiyində hər zaman mərdliklə dayansınlar və igidlik, qəhrəmanlıq göstərmiş oğullarımızdan nümunə götürsünlər", - deyə bildirdi.

Öyrəndik ki, Şəhla ananın oğlu 44 günlük Vətən müharibəsində döyüşüb. Oğlu müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vüsal Dəmirov Vətən müharibəsində Suqovuşan istiqamətində döyüşərkən yaralanıb. "Oğlum yaralanmasına baxmayaraq döyüşə əsl Azərbaycan igidi kimi atılmağa hazır idi. Mən bir ana kimi onunla fəxr edirəm. Hər gün dua edirdim ki, şəhidlərimizin qisası alınsın, torpaqlarımız azad olsun. Bu qələbəni bizə yaşadanlara və Ali Baş Komandanımız İlham Əliyevə hər bir ananın adından təşəkkürümü bildirirəm. Yaşasın Azərbaycan xalqı!".

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə ordusu üçün daha 40 ədəd Hürkuş-B təlim təyyarəsi sifariş edilib



Türkiyə Müdafiə Sənayesi Nazirliyi "Türk Havacılıq və Kosmik Sənaye" şirkətinə (TUSAŞ) daha 40 ədəd yeni nəsil Hürkuş-B tipli təlim təyyarəsi sifariş edildiyini açıqlayıb.

Türkiyə ordusunda hərbi pilotlara tələbatın artdığını nəzərə alan dövlət qurumları ümumilikdə 55 ədəd Hürkuş-B təlim təyyarəsinin alınmasına dair qərar qəbul etmişdi. İlk mərhələdə 15 təyyarənin tədarükü üçün müqavilə imzalanmışdı.

Yerli istehsal olan hərbi təlim təyyarələrinin ilk partiyası Türkiyə Hərbi Hava Qüvvələri Komandanlığına 2025-ci ilin may ayında, sonuncusu isə 2027-ci ilin iyununda təhvil veriləcək.

Qeyd edək ki, NATO standartlarına cavab verən və öncəki modifikasiyalı Hürkuş-A-dan bir sıra üstün xüsusiyyətlərə malik Hürkuş-B təyyarəsi ilk uçuşunu 2013-cü il avqustun 29-da həyata keçirib.

### Rusiyanın hərbi təyyarəsi qəzaya uğrayıb



Rusiya Hərbi-Kosmik Qüvvələrinin təyyarəsi Stavropol diyarında qəzaya uğrayıb. Bu barədə RF Müdafiə Nazirliyinin məlumatına istinadla xəbər verir.

Rusiya Aerokosmik Qüvvələrinə məxsus Tu-22M3 təyyarəsi döyüş tapşırığını yerinə yetirdikdən sonra öz aerodromuna qayıdarkən Stavropol diyarında qəzaya uğrayıb. Pilotlar katapult edə biliblər, 3 ekipaj üzvü təxliyə edilib. Hazırda bir pilotun axtarışı davam edir.

Boş əraziyə düşən təyyarənin göyərtəsində sursat olmayıb. İlkin məlumata görə, qəzaya səbəb texniki nasazlıq olub.

### İsrail İrana raket zərbəsi endirdiyini təsdiqləyib



Təl-Əviv İsrail ordusunun aprelin 19-da İran ərazisinə hava zərbəsi endirdiyini təsdiqləyib.

"The Washington Post" qəzeti bu barədə İsrail nümayəndəsinə istinadla məlumat yayıb. O, zərbənin İranın İsrailə raket və PUA hücumlarına cavab olduğunu vurğulayıb.

Hücumun İrana nə qədər ziyan vurduğu hələ aydın deyil. İsrail rəsmisi, eyni zamanda, bunun Təl-Əvivin Tehranı İranın daxilindəki hədəfləri vurmaq qabiliyyətinə malik olduğuna inandırmaq məqsədi daşıdığını bildirib.

Qeyd edək ki, bir müddət öncə, ABC telekanalı İsrailin İrandakı bəzi obyektlərə raket hücumu həyata keçirdiyi barədə məlumat yayıb. Eyni zamanda, "Fars" agentliyi İsfahan şəhərinin hava limanı yaxınlığında partlayış səslərinin eşidildiyini yazıb.

### Keniyalı general helikopter qəzasında ölüb



Keniyanın ən yüksəkrütbəli hərbi zabiti general Frensis Omondi Oqolla ölkənin qərbində hərbi helikopterin qəzaya uğraması nəticəsində həlak olub.

Oqolla helikopterdə 11 hərbçi ilə birlikdə olub. Onlardan yalnız iki nəfəri qəzadan sağ qurtara bilib.

Keniya Prezidenti Uilyam Ruto helikopterin qəzaya uğramasından sonra təcili Təhlükəsizlik Şurasını çağırıb. Onun sözlərinə görə, qəza paytaxt Nayrobidən 400 kilometr şimal-qərbdə, Elgeyo Marakvet qraflığında, helikopterin havaya qalxmasından az sonra baş verib.

Məlumatda bildirilib ki, hadisənin səbəbini müəyyən etmək üçün Keniya Hərbi Hava Qüvvələri tərəfindən təhqiqat qrupu yaradılıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Asudə vaxt*

# Əsgərlərin asudə vaxtının səmərəli təşkili vacib amildir

Hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyətinin daim yüksək səviyyədə saxlanılması Azərbaycan Ordusunun rəhbərliyi qarşısında duran vacib amillərdən biridir. Bu səbəbdən də hərbi hissələrdə müəyyən olunmuş vaxtlarda maraqlı söhbətlər aparılır, viktorinalar və sual-cavab axşamları keçirilir, həmçinin fərdi olaraq fiziki hazırlıq ilə məşğul olmaq istəyənlər idman meydançasına gedərək, güclərinə güc qatırlar. Bu cür tədbirlər həm də əsgərlər arasında güclü dostluq-yoldaşlıq əlaqələrinin möhkəmləndirilməsinə, şəxsi heyətdə birlik hissinin aşılanmasına yönəlir. "N" hərbi hissəsinin ideoloji otağında şəxsi heyətin asudə vaxtının maraqlı və səmərəli təşkil edildiyinin şahidi olduq. Bu hərbi hissədə ideoloji otaq şurasının üzvlərinin fəaliyyət göstərdiyini gördük. Bir qrup əsgər bədii kitab, hərbi jurnal və qəzet oxuyur, dünya görüşünü artırır, digərləri isə intellektual səviyyələrinin yüksəlməsinə yönələn dama oyunu oynayırdılar. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Ruslan Həsənovun nəzarəti altında əsgərlər kitab və jurnalda maraqlı bilgilərə rast gəldikdə yoldaşları ilə bölüşür, bir-biri ilə maraqlı söhbətlər edirdilər. Bəzən mütaliədən ayrılaraq kiçik çavuş Ruslan Həsənova Vətən müharibəsi haqqında suallar verir, aldıqları cavablardan sevinc və fərəh hissi keçirirdilər. Bu prosesi kənardan izləyərkən bir daha əmin oldum ki, Azərbaycan gəncləri 44 günlük haqq savaşımızın tarixi əhəmiyyətini tamlığı ilə dərk edir, igid və qəhrəmanlarımızı özlərinə örnək bilir, şanlı Zəfərin səhifələrini daha dərin öyrənmək istəyirlər. Şübhəsiz ki, bu da şəxsi heyətin asudə vaxtının düzgün və səmərəli təşkilinə, onların hərbi intizamlarına və vətənpərvərlik ruhunda tərbiyə olunmasına müsbət təsir edir.



Kiçik çavuş Ruslan Həsənov yaxınlaşıb asudə vaxtın təsirindən, təşkil olunma qaydasından söhbət açmalı idim.

- Azərbaycan əsgəri hər zaman öz üzərində işləyir, istər döyüş hazırlığı, istər fiziki, istərsə də sıra hazırlığının yüksəldilməsi üçün çalışır. Komandirlərimizin nəzarəti altında keçirilən bütün məşğələlərdə şəxsi heyət bütün gücünü səfərbər edir, qarşıya qoyulan istənilən tapşırığın öhdəsindən yüksək bacarıqla gəlir. Bunun üçün intensiv məşğələlərdən sonra asudə vaxtı səmərəli təşkil etməyə çalışırıq. Bu zaman onların hərtərəfli inkişafına diqqət edirik. Rəhbərlik onların fiziki, mədəni və mənəvi göstəricilərini yüksəltmək və idmanla məşğul olmaları üçün əlverişli şərait yaradır, sinif və ideoloji otaqlarını düzəldir. Əsgərlərin yaradılan şəraitdən faydalanmasına xüsusi diqqət yetirərək, mənəvi cəhətdən kamilləşməsini, psixoloji vəziyyətlərinin yaxşılaşdırılmasını nəzarətdə saxlayırıq, - R.Həsənov dedi.

Kiçik çavuş ilə söhbətimizi yekunlaşdırdıqdan sonra əsgərlərlə həmsöhbət olduq.

Sumqayıt şəhərindən ordu sıralarına çağırılan və dama oyununda qalib gələn əsgər Damət Bayramovu təbrik etdik. Təbrikimizin cavabında isə o dostluğun qalib gəldiyini bildirdi. Daha sonra hərbi xidməti və xidmətin ona qazandırdığı müsbət keyfiyyətlərdən danışdı. "Mənim atam Vüqar Bayramov Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. O, könüllü olaraq Ağdam istiqamətində gedən döyüşlərə qatılmış, Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşmüşdür. Uşaqlığım boyu mənə haqq savaşımız haqqında danışırdı. "Oğlum, Ali Baş Komandanın sərkərdəliyi altında biz torpaqlarımızı azad edəcəyik, Qarabağ əzəli sahibinə qayıdacaq!" - deyirdi. Mən hər zaman onun danışdığı söhbətləri böyük maraqla dinləyir, tarixi Qələbənin yaxında olduğunu əminliklə bilirdim. Nəhayət, o gün gəlib çatdı. Ordumuz əks-hücum əməliyyatlarına başladı. Hal-hazırda mən də hərbi xidmətdəyəm. İndi komandirlərimizin 44 günlük haqq savaşımız haqqında xatirələrini böyük maraqla dinləyir, hər bir hərbi qulluqçumuzla fəxr edirəm. Arzu edirəm ki, azad olunan torpaqlarda xidmətimi davam etdirim", - deyə əsgər Damət Bayramov bildirdi.

"Hərbi xidmət bizi mərd və qorxmaz döyüşçü kimi yetişdirir", - deyərək əsgər Aqşin Məmmədov yoldaşının sözlərinə qoşuldu. - Yuxarı komandanlığın bizə göstərdiyi diqqət və qayğı nəticəsində sosial-məişət şəraitimiz yüksək səviyyədədir. Bizim üçün yaradılan şəraitdən çox razıyam. Biz də öz növbəmizdə xidmətimizi düzgün təşkil edir, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetiririk. Əgər hər hansı bir qüvvə müqəddəs torpaqlarımıza göz dikərsə, suverenliyimizə əl uzatmağa qalxarsa, hər birimiz döyüşə atılmağa, Ana Vətənin qarşısında borcumuzu ödəməyə hazırıq.

Əsgərlər Sadiq Mikayılov, Kamil Abbasov, İlham Abbasov və Fərəməz Əsgərov da silahdaşlarının sözlərinə qoşuldular. "Asudə vaxtdan səmərəli istifadə edərək, hərbi sirlərə dərindən yiyələnirik. Yaradılan şərait üçün rəhbərliyə və komandirlərimizə dərin təşəkkürümüzü bildiririk", - dedilər.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Rabitəçi peşəsi də məsuliyyət tələb edir

Hərbi qulluqçu iradəli, intizamlı, olmalı, verilən əmr və göstərişləri vaxtında, dəqiq icra etməli, idman hazırlığı da yerində olmalıdır. Hərbçi olmaq istəyən hər kəs özünü bu peşəyə əvvəlcədən hazır etməlidir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Zamin Kazımov hələ orta məktəbdə oxuduğu illərdə hərbçi olmaq qərarına gəlib. Müddətli həqiqi hərbi xidmətini də o zaman düşmənlə üzbəüz olan səngərlərdə keçib. Xidməti başa çatandan sonra tərxis olunub. Qısa vaxtdan sonra yenidən ordu sıralarına qayıtmaq qərarına gəlib. Bu yolda ona valideynləri də xeyir-dua verib, gələcək xidmətində uğurlar diləyiblər. Baş çavuş Zamin Kazımov rabitəçi ixtisasını seçib. Müvafiq kursu bitirdikdən sonra yenidən xidmətə başlayıb. Zamin dedi ki, onun tabeliyində bacarıqlı müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları da var. Onlardan biri də əsgər Ümid Beqiyevdir.



Rabitə növbətçisi olan əsgər Ümid Beqiyev Şabran rayonundan hərbi xidmətə çağırılıb. İlk gündən rabitə bölməsində hərbi xidmətə başlayıb. Təcrübəli komandirlərindən rabitənin sirlərini öyrənib. Əsgər Ü.Beqiyev deyir ki, rabitəçi olmaq hərbi qulluqçudan operativlik, dəqiqlik tələb edir. Rabitəçi yuxarı komandanlıqdan gələn məlumatları vaxtında və dəqiq müvafiq bölmələrə ötürür. Məlumatları qəbul edib ötürməkdə onun heç bir çətinliyi olmadığını, əksinə, bu istiqamətdə yetərincə bilik və bacarıqlara yiyələndiyini bildirdi. Xətli və xətsiz rabitə vasitələrindən istifadə etməklə ona verilən tapşırığı uğurla icra edib.

Baş leytenant Hüseyn Ağaverdiyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) rabitəçi ixtisası üzrə bitirmiş peşəkar zabitlərdəndir. Zabit əsgər Ümid Beqiyevin hərbi xidmətə gəldiyi ilk gündən onun tabeliyində olduğunu vurğuladı. Bacarıqlı, intizamlı bir əsgər kimi komandirlər həmişə ondan razılıq edirlər. O, rabitə növbəsində xidmət aparan zaman hər hansı bir nöqsana yol verdiyini xatırlamır. Əsgər Ümid Beqiyev həmişə olduğu kimi, yenə rabitə növbəsindədir. Xidməti vəzifələrini layiqincə yerinə yetirir. Əməliyyat tədbirlərinə də cəlb olunan Ümid üzərinə düşən tapşırıqları uğurla yerinə yetirib. O, gənc əsgər yoldaşlarına da rabitənin incəliklərini öyrətdiyini və silahdaşlarının da öz növbəsində bu peşəyə daha çox maraq göstərdiklərini dedi. Ümid deyir ki, rabitəçi peşəsi hər bir əsgərdən yüksək məsuliyyət tələb edir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan bilyardçısı Avropa çempionu olub



Azərbaycan bilyardçısı Tofiq Quliyev Moldovanın Kişinyov şəhərində keçirilmiş piramida üzrə Avropa çempionatında qızıl medal qazanıb.

İdmançı 7 ölkədən 70 idmançı arasında birinci yeri tutub.

Azərbaycanın digər təmsilçisi Niyazi Xələfov isə bürünc mükafatın sahibi olub. Gümüş medala isə Ukrayna bilyardçısı Dmitro Pokotilski layiq görülüb.

Bununla da Azərbaycan yığması turniri iki medalla başa vurub.

## Şəhriyar Məmmədyarov Kanadada rapid turnirinin qalibi olub



Kanadada şahmat üzrə İddiaçılar Turnirində istirahət günü məşqçi-köməkçilər arasında rapid turniri keçirilib.

Yarışda azərbaycanlı qrosmeyster Şəhriyar Məmmədyarov da iştirak edib. O, blitsdə olduğu kimi, rapid yarışında da qalib adını qazanıb.

Qeyd edək ki, Şəhriyar Məmmədyarov Torontoya Azərbaycan təmsilçisi Nicat Abasovun sekundant-məşqçisi qismində yollanıb.

## Azərbaycanın stolüstü tennisçisi beynəlxalq turnirdə bürünc medal qazanıb




Azərbaycanın stolüstü tennisçisi Lüksemburqda keçirilən "WTT Youth Contender" turnirində bürünc medal qazanıb.

İlkin mərhələdə Almaniya, Fransa, Lüksemburq və Monqolustan təmsilçilərinə qalib gələn yeniyetmə idmançı qrup səddini lider kimi adlayıb. 18 finalda isveçli, 14 finalda isə fransalı rəqibini də mübarizədən kənarlaşdıran O.Quluzadə yarımfinalda digər fransalı rəqibinə 2-3 hesabı ilə uduzaraq turnirin bürünc medalına layiq görülüb.

Qeyd edək ki, bu, Onur Quluzadənin cari mövsümdə beynəlxalq yarışlarda qazandığı 5-ci mükafatdır.

## Avropa çempionatında qızıl medal qazanan Azərbaycan boksçuları Vətənə qayıdıblar



Xorvatiyanın Poreç şəhərində gənclər arasında keçirilən Avropa çempionatında uğurlu çıxış edən Azərbaycan boksçuları Vətənə qayıdıblar.

Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançıların qarşılanma mərasimi olub. Mərasimdə idman ictimaiyyətinin nümayəndələri, media mənsubları, azarkeşlər və idmançıların yaxınları iştirak ediblər.

Milli komanda qitə birinciliyini iki qızıl medalla başa vurub. Yığmanın heyətində Bilalhəbaşi Nəzərov (48 kiloqram) və Ömər Aslanlı (54 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Məmmədov Röyal Ramiz oğluna məxsus M/ V № 102911 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
İbrahim MƏMMƏDBƏYOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 151
Nüsxə 4650